# Kembric Universiteti

**Yerləşir:** Böyük Britaniya Krallığı,İngiltərə, Kembric şəhəri
**Yaranma tarixi:** 1209-cu il
**Tipi:** Dövlət
**İşçi heyətinin ümumi sayı:** 9815
**Tələbələrin sayı:** 19515
**İllik gəlirləri:** 1,638 milyard funt-sterlinq (2014-2015-ci tədris ili)
**İllik xərcləri:** 1.304 milyard funt-sterlinq (2014-2015-ci tədris ili)
**Rəsmi saytı:** www.cam.ac.uk

Kembric Universiteti (University of Cambridge) İngiltərənin Kembric şəhərində yerləşən qədim tarixə malik ali təhsil müəssisəsidir. Bu ali təhsil ocağı İngiltərənin Oksforddan sonra ikinci, dünyanın isə yeddinci ən qədim universitetidir. Böyük Britaniyanın “Times Higher Education” dərgisinin 2015-ci ildə tərtib etdiyi dünya universitetlərinin reytinq cədvəlində Kembric Universiteti 2-ci, “QS World University Rankings” jurnalının ötən ilki reytinq sıralamasında isə 3-cü olub. Kembric Universiteti Böyük Britaniya universitetlərinin elmi tədqiqat şəbəkəsi olan Rassel Qrupunun, Avropanın 40 universitetinin şəbəkəsi olan Koimbra Qrupunun, Avropa Tədqiqat Universitetləri Liqasının və Avropa Universitetləri Assosiasiyasının üzvüdür.





Kembric Universitetinin tələbəsi şahzadə Uilyam



Kembric Universitetinin professoru Q.Mürşüdov tədqiqat qrupu ilə



Universitetin bakalavrları

## Tarixi

Kembric şəhərinin adına ilk dəfə X əsrə aid yazılı mənbələrdə rast gəlinir. Şəhərin yaranmasının dəqiq tarixi məlum deyil. Qeyd edək ki, Kem çayının (şəhər adını bu çaydan götürüb) üzərindən keçən körpü 875-ci ildə tikilib. Körpünün şimalında Kembric qəsri, cənubunda isə bir neçə kilsə yerləşib. 1100-cü ildən sonra tikilən ticarət limanı şəhərin inkişafına təkan verib və onun ticarət mərkəzi kimi tanınmasına səbəb olub. Buna baxmayaraq, şəhərə əsl dünya şöhrətini Kembric Universiteti gətirib. Universitetin tarixi 1209-cu ildən - yerli əhali ilə münaqişədən sonra Oksforddan qaçan bir qrup müəllim və tələbənin Kembric şəhərinə gəlişindən sonra başlayır. Şəhərə gəldikdən sonra onlar bir müddət kirayə tutduqları evdə yaşayırlar. 1226-cı ildə isə sıralarını genişləndirərək məktəb yaradıblar. Məktəbə rəhbərlik isə kansler tərəfindən həyata keçirilib. Şəhərə gəldikləri ilk gündən müəllimlərlə yerli əhali arasında münaqişələr yaranıb. Yerli əhali müəllimləri sıxışdırıb, onlara verdikləri kirayə evlərin və satdıqları ərzaqların qiymətini bahalaşdırıb. 1231-ci ildə kral III Henri müəllimləri öz himayəsinə götürüb və onları yerli əhalinin özbaşınalıqlarından qorumaq məqsədilə fərman imzalayıb. Fərmana əsasən, müəllimlərə şəhərdə təlim keçmək hüququ verilib və onlar bəzi vergilərdən azad olunublar. Ali məktəbin tələbələri Kembricin daimi sakinləri ilə yanaşı şəhərdə yaşamaq hüququ qazanıblar.

İlk vaxtlarda məktəbdə yalnız fundamental fənlər tədris olunub, buraya ritorika, qrammatika və məntiq fənləri, həmçinin astronomiya, hesab, musiqi və həndəsə daxil idi. Məktəbdə həmçinin dini nəzəriyyəni, mülki hüququ və tibb elmlərini öyrənmək mümkün idi. Kembric Universitetinin ənənəvi fakültələrinin (humanitar, hüquq, ilahiyyat və tibb) formalaşması da həmin dövrə təsadüf edir. Məktəb müəllimlərinin əksəriyyəti ruhanilərdən və din xadimlərindən ibarət olub. Onlar yerli ruhanilərə - arxidyakon (ali dərəcəli keşiş) və İli kilsəsinin yepiskopuna tabe idilər. Lakin XV əsrin sonlarına yaxın müəllimlər bu asılılıqdan azad olaraq Roma papasının tabeliyinə keçiblər. Məktəbin kansleri mənəvi hakim səlahiyyətlərini icra etməyə başlayıb. O, bütün nizam-intizam məsələlərinə nəzarət edib. Kansler məktəbdə davamiyyətin tənzimlənməsi və dərəcələrin verilməsi üzrə salahiyyətləri də həyata keçirib.

XVIII əsrin sonlarına qədər Kembric Universitetində təlimlər evlərdə və kilsələrdə keçirilib. Universitetin ilk kolleci olan Piterhaus 1284-cü ildə tikilib. Kolleclər əsasən xeyriyyəçilər tərəfindən açılıb. Universitet papa XXII İohann tərəfindən rəsmi olaraq 1318-ci ildə tanınsa da ali məktəb həmin dövrədək artıq özünü təsdiqləmiş təhsil ocağı kimi fəaliyyət göstərib. 1534-cü ildə kral VIII Henrinin fərmanı ilə universitetə kitab nəşr etmək hüququ verilib. 1690-cı ildən universitetin bu nəşriyyatı akademik nəşriyyat statusu alıb. Hazırda Kembric nəşriyyatı hər il 2500-dən çox kitab və 200 jurnal nəşr edir. 1869-cu ilədək Kembric Universiteti yalnız oğlanları qəbul edib. Həmin il qızlar üçün ilk kollec olan Qerton kolleci yaradılıb. İki il sonra qızlar üçün Nyumen adlı daha bir kollec açılıb. Qızlar Kembric Universitetində keçirilən buraxılış imtahanlarında 1881-ci ilədək iştirak etsələr də, elmi dərəcəni yalnız 1948-ci ildə ala biliblər. 1972-1988-ci illərdə kolleclər qız və oğlan tələbələrin birgə təhsil almaları məqsədilə birləşdirilib. Hazırda qadınlar universitetin tələbələrinin üçdə ikisini təşkil edirlər. Kembric Universitetində 114 kitabxana, müxtəlif dillərdə 8 milyon kitab və əlyazma saxlanılır. Ölkənin Milli Kitabxanası kimi universitetin kitabxanasına ölkədə nəşr olunan bütün kitabların nümunələri daxil olur. Kitabların əksəriyyəti azad istifadədir, evə götürülə bilər, kitabxana isə bütün gün ərzində açıqdır.

## Büdcəsi və təhsil haqqı

Universitetin maliyyələşməsi dövlət təhsil qrantı (Higher Education Funding Council), tələbə və aspirantların təhsil haqları , xeyriyyə fondlarının ianələri, “Kembric Universitet Press” nəşriyyatının gəlirləri, “Russell” qrupunun qrantları və digər mənbələrdən əldə olunur. Kembric Universitetində təhsil almaq üçün yalnız Britaniya vətəndaşları dövlətdən maliyyə yardımı ala bilərlər. Tələbə universitet və kollecdə yaşamaq üçün dövlətdən 4590 funt-sterlinq məbləğində borc götürə bilər. Tələbə həmçinin təhsilini başa vurduqdan sonra həmin borcu hissələrlə universitetə ödəyir. Bu zaman şəxsin minimum əməkhaqqısı 15000 funt-sterlinqdən aşağı olmamalıdır. Az gəlirli ailələrdən olan tələbələrə dövlət yardım (qrant) təqdim edir. Avropa İttifaqından olan tələbələr üçün təhsil haqları ingilislərlə eyni həddə müəyyən olunub. Kembric Universitetində əcnəbi tələbələr üçün illik təhsil haqqı ixtisasdan asılı olaraq 11829-28632 funt-sterlinq arasında dəyişə bilər. İngiltərə və Avropa İttifaqı tələbələri üçün illik təhsil haqqı (tibb və baytarlıq tibbi istisnadır) 6984 funtdur, humanitar elmlər üzrə təhsil isə 9747 funt-sterlinqə başa gəlir. Təhsil aldığı müddətdə Kembricdə yaşayış tələbənin həyat tərzindən asılı olaraq 8060 funt-sterlinq təşkil edir. Kembric Universitetinin illik gəlirləri 1,638 milyard funt-sterlinq, xərcləri isə 1,304 milyard funt-sterlinq təşkil edir. Tədqiqatlara isə ümumilikdə 267 milyon funt-sterlinq xərclənir. 2013-cü il iyulun 31-ə qədər ali məktəbin ümumi gəliri 1,44 milyard funt-sterlinq olub. 332 milyon funt-sterliq elmi tədqiqat qrantları və müqavilələrin payına düşür. Universitetin ümumi ianə fondunun həcmi 4,9 milyard funt-sterlinq təşkil edir ki, bu da Amerika hüdudlarından kənarda istənilən universitetlər arasında ən böyük vəsaitdir.

Universitet məzunlarının ümumi illik gəlirləri beynəlxalq tədqiqatlara əsasən 84 min ABŞ dolları təşkil edir. Kembric Universitetində *undergraduate* proqramları əcnəbi tələbələr üçün ixtisasdan asılı olaraq 15,063 - 22,923 funt-sterlinq (23,344-35,527 ABŞ dolları ), avropalılar üçün isə 9000 funt-sterlinq (13,948 ABŞ dolları) təşkil edir. Postgraduate proqramları əcnəbilər üçün ixtisasdan asılı olaraq 19,557-26,877 funt-sterlinq (30,310-41,655 ABŞ dolları), avropalılar üçün isə 9,960 -11,037 funt-sterlinqdir (15,435-17,105 ABŞ dolları). Kembric Universitetinin büdcəsi 4 milyard funt-sterlinqdir. Bu da Kembricin nəinki Avropanın ən qədim və mühafizəkar, həm də ən varlı universiteti olmasının göstəricisidir. 2014-cü il üçün Kembric Universitetinin ianə fondu 5,89 milyard funt-sterlinq təşkil edib. Onun təxminən 2,3 milyard funt - sterlinqi bilavasitə universitetə, 3,6 milyardı isə kolleclərə göstərilən yardımlar təşkil edir. Yardımlardan əldə olunnan gəlirlər isə təxminən 130 milyon funt-sterlinqdir. Onun əzəli rəqibi olan Oksford üçün isə bu rəqəm anoloji dövr üçün 4,4 milyard funt-sterlinq civarında olub. Universitet gəlirlərinin böyük hissəsini təhsil qrantlarının həyata keçirilməsi məqsədilə Britaniya hökumətindən alır. Ali məktəb həm də himayəsində olan nəşriyyatdan əldə etdiyi vəsaitlərdən də gəlir götürür. Məlumdur ki, dünyanın aparıcı universitetləri təhsil, elmi və digər proqramların maliyyələşdirilməsi üçün məqsədli kapital fondu (endaument) hesabına daxil olmalardan stabil gəlir əldə edirlər. 2013-cü ildə Kembric Universitetinin endaumenti təxminən 4,9 milyard funt-sterlinq təşkil edib.

## Universitet bu gün

İngiltərənin əhəmiyyətinə görə ikinci ali məktəbi olan Kembric Universitetinin 31 kolleci var. Onlardan 3-ü (Mürrey Edvards, Nyunmen və Lüsi Kavendiş) yalnız qızların qəbulunu həyata keçirir. Qalan 28 kollecdə hər iki cinsin nümayəndələri təhsil ala bilərlər. Oğlanlar üçün yeganə kollec olan Maqdalena (Modlin) Kolleci 1988-ci ildən etibarən qız tələbələrin də qəbulunu həyat keçirir. İki kollec (Kler-Hol və Darvin) yalnız magistrant və doktorantlar üçün nəzərdə tutulub. Mürrey Edvards, Lüsi Kavendiş, Müqəddəs Edmund və Vukfson kollecləri də üstünlüyü yaşlı tələbələrə və doktorantlara verir. Digər 25 kollec həm bakalavriat, həm də magistrant və doktorantların qəbulunu həyata keçirir. Kembric Universitetində təhsil alan şəxslər üç il müddətinə universitet kolleclərinin ərazisində yerləşən yataqxanalarda yaşamaq hüququ əldə edirlər. Kolleclərin ərazisində kiçik kilsələr, kitabxanalar, mağazalar, kafelər, camaşırxanalar fəaliyyət göstərir. Burada idman qurğuları, oyun meydançaları, kortlar, gimnastika zalları mövcuddur. Kolleclərin bəzilərinə rəhbərlik masterlər, digərlərinə isə təhsil müəssisələrinin prezidentləri tərəfindən həyata keçirilir. Universitetin ilk kolleci 1284-cü ildə İli kilsəsinin yepiskopu Hüqo de Balşam tərəfindən yaradılan Müqəddəs Piter və Piterhaus Kollecidir. Hazırda Piterhaus Kolleci müəllüm və tələbə heyətinin sayına görə universitetin ən kiçik kollecidir. İldə 80-dək tələbə qəbul edən kollec baytarlıq tibbi, torpaq iqtisadiyyatı, coğrafiya, pedaqogika, politologiya, psixologiya, sosiologiya ixtisaslarından başqa, beyin fənləri üzrə təlim proqramları təklif edir. Kollecin 700 ildən çox yaşı olan qədim binaları var. Tələbələr kollecdə yaşayır, təhsil alır və işləyirlər.

Universitetin ən qədim kolleclərindən Kler Kolleci (1326), Pembruk Kolleci (1347), Qonvil və Kiz Kolleci (1348), Triniti Hol (1350), Korpus Kristi Kolleci (1352), Meri Maqdalena Kolleci (1428), Krayt Kolleci (1437), Kral Kolleci (1441), Kuinz Kolleci (1448), Müqəddəs Katerian Kolleci (1473), Cizus Kolleci (1496), Müqəddəs İohan Kolleci (1511), Triniti Kolleci (1546), Emanuel Kolleci (1584), Sidni Sasseks Kolleci (1594), Homerton Kolleci (1730), Dauninq Kolleci (1800), Qerton Kolleci (1869), Pitsvilyam Kolleci (1869), Nyumen Kolleci (1871), Seluin Kolleci (1882), Hyuz Hol Kolleci (1885), Müqəddəs Edmund Kolleci (1896) adlarını çəkmək olar. Ötən əsrin əvvəllərindən isə Mürrey Edvards Kolleci (1954), Darvin Kolleci (1964), Çörçil Kolleci (1960), Lüsi Kavendiş Kolleci (1965), Vulfson Kolleci (1965), Kler Hol Kolleci (1966) kimi yeni kolleclər yaradılıb. Robinson Kolleci (1979) Kembric Universitetinin ən son yaradılmış kollecidir. Kolleclər Britaniya elminə xüsusi töhfələr verib. Triniti Kollecinin yetirmələri arasında dövlət xadimi və filosof Frensis Bekon, şair Corc Herbert, dahi fizik İsaak Nyutonun adlarını qeyd etmək olar. Ümumilikdə Triniti Kollecinin məzunlarından 32 nəfər Nobel mükafatına layiq görülüb. Çörçil Kollecinin 20-dən çox məzunu və müəllimi Nobel mükafatı alıb.

Kolleclərlə yanaşı Kembric Universitetinin 100-dən artıq departamenti, fakültəsi, məktəb və institutları var. Universitetdə 6 məktəb fəaliyyət göstərir. Bunlar İncəsənət və Humanitar elmlər, Bioloji elmlər (baytarlıq təbabəti elmləri istisna olmaqla), Klinik Tibb, Humanitar və Sosial elmlər, Fiziki elmlər, Texnologiya məktəbləri daxildir. Kliniki Tibb Məktəbinin əsası 1540-cı ildə qoyulub. Humanitar və Sosial Elmlər Məktəbinə 22 institut daxildir.

## İdarəçilik

Kembric Universiteti ali məktəbin müəllim heyəti tərəfindən seçilmiş mərkəzi orqan - Senat tərəfindən idarə olunur. Universitetin idarəçilik strukturu demokratik quruluşa malikdir. Senat universitetin qanunvericilik orqanıdır. Onun tərkibinə kansler, vitse-kansler, doktorluq və magistrlik dərəcəsi olan alimlər daxildir. Senatın daxilində 500 nəfərdən ibarət komitə fəaliyyət göstərir. Komitə əsasən professorlar, müəllimlər və kollec əməkdaşlarından ibarət olur. Kansler senat üzvləri tərəfindən ömürlük seçilir. Bu vəzifəyə adətən universitetin adi həyatında iştirak etməyən tanınmış zadəgan nəslinin nümayəndələri seçilir. Kembric Universitetinin kansleri Devid Seynsberidir. Universitetə əsas rəhbərlik isə kollecin məsul əməkdaşları arasından 2 il müddətinə seçilən vitse-kansler tərəfindən həyata keçirilir. Hazırda universitetin vitse-kansleri professor Leşek Boriseviçdir. Universitetin ümumilikdə 9815 nəfər işçisi və 19515 tələbəsi var. Tələbələrin 22 faizi əcnəbilərdir. Universitetin əsasnaməsinə görə, kolleclər müəllimləri işə qəbul etmək hüququna malikdir. Elmi dərəcələr isə ali məktəb tərəfindən verilir.

Kembric Universitetinə qəbul üçün ilk növbədə UCAS-a (Universities and Colleges Admissions Service - Universitet və kolleclərə qəbul xidməti) onlayn şəkildə ərizə təqdim edilməlidir. UCAS komissiyası ərizəyə baxdıqdan sonra namizədə identifikasiya nömrəsi təqdim edilir. UCAS-a ərizələrin qəbulu hər il oktyabrın 15-də başa çatır. Bundan əlavə, əcnəbi tələbələr IELTS (7 baldan aşağı olmamalıdır) və ya TOEFL (600-250 bal) imtahanlarının nəticələrini təqdim etməlidir. Eyni zamanda namizədlər qəbul komissiyasında müsahibədən keçirlər, hətta onlardan inşa yazmaları da tələb edilə bilər.

## Kembricin məşhurları

Kembric Universiteti dünyaya bir çox məşhurlar verib. Universitet dəqiq elmlər və tibb sahəsində əldə etdiyi uğurları ilə məşhurdur. Dünyanın heç bir universiteti elmə Kembric Universiteti qədər Nobel mükafatı laureatı bəxş etməyib. 1904-cü ildən başlayaraq Kembricin 88 nəfər məzunu və müəllimi ali elm mükafatına layiq görülüblər. Onlardan 29 nəfər fizika, 25 nəfər tibb, 21 nəfər kimya, 9 nəfər iqtisadiyyat, 2 nəfər ədəbiyyat və 1 nəfər sülh sahəsində Nobel mükafatı alıblar. Universitetin əməkdaşlarından biokimyaçı alim, insan genomu üzrə çox mühüm tədqiqatlar aparmış Frederik Cenger iki dəfə Nobel mükafatına layiq görülüb. Nobelçi alimlər Frensis Krik və Ceyms Uotson DNT-nin üçölçülü strukturunu yaradıblar. Orta əsrlərin məşhurlarından Çarlz Darvin, İsaak Nyuton Kembrici bitiriblər. Mexanika qanunlarını və dünya cazibə qanununu kəşf etmiş İsaak Nyuton həyatının böyük hissəsini Kembricdə keçirib, bu ali məktəbdə professorluq edib. Müasir nüvə fizikasının baniləri olan lord Ernest Rezervord, Nils Bor, C. Oppenheymer öz təlimlərini məhz Kembric Universitetində işlədikləri illərdə yaradıblar. Müasir nəzəri kosmologiyanın banisi Stiv Hokinin elmi həyatı da Kembriclə bağlıdır. Dəqiq elmlər sahəsində üstün müvəffəqiyyətləri ilə yanaşı Kembric siyasət sahəsində nailiyyətləri ilə də fəxr edə bilər. Böyük Britaniyanın 15 baş naziri və digər ölkələrin 25 hökumət başçısı bu ali məktəbi bitiriblər. Britaniya şahzadəsi Çarlz və Edvard Kembricin məzunlarıdır. Çox sevindirici haldır ki, hazırda Kembric Universitetinə dəvət edilmiş ilk azərbaycanlı alim, professor Qərib Mürşüdov da Avropanın bu nüfuzlu universitetində tədqiqatlar aparır. Universitetin Molekulyar Biologiya Laboratoriyası (MBL) Tədqiqat İnstitutunun Hesablama Kristalloqrafiyası qrupunun rəhbəri Q. Mürşüdovun elmi məqalələrinə 20000-dən artıq istinad olunub.

**Oruc MUSTAFAYEV,**
*“Azərbaycan müəllimi”*